# “Bakı Enerji Həftəsi” nailiyyətlərimizin daha bir nümayişinə çevrildi












*Foto İlham BABAYEVİNDİR*

**Bu gün Bakı Enerji Həftəsi öz işini yekunlaşdıracaq. İyunun 1-dən paytaxtda start götürən tədbirlərə iyunun 4-də Şuşada yekun vurulacaq.**

Bakı Enerji Həftəsi üç mühüm tədbiri əhatə etdi. 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji Sərgisi, eləcə də Bakı Enerji Forumu Azərbaycanın bu sahədəki tarixinin unudulmaz səhifələrinə çevrildilər. Tədbirlərdə dünyanın enerji nəhəngləri yenidən bir araya gəldilər, daha dayanıqlı və təhlükəsiz enerji güclərinin yaradılması üçün yeni əməkdaşlıq və tərəfdaşlıq əlaqələri yaratdılar.

Neft və Qaz Sərgisində SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti), ölkəmizdə ən iri neft-qaz və ixrac layihələrinin əməliyyatçısı olan bp (Böyük Britaniya), onların tərəfdaşları - "Total" (Fransa), "Equinor" (Norveç), "İnpeks" (Yaponiya), "Türkiye Petrolleri" (Türkiyə), bir sözlə, 30 ölkəni təmsil edən 249 şirkət öz nailiyyətlərini nümayiş etdirdi. Hansı ölkəni və hansı sahəni əhatə etməsindən asılı olmayaraq, bütün şirkətlər sərgidən məmnun qaldıqlarını söylədilər. Həmsöhbət olduğumuz daha bir qonağımız bunu təsdiqlədi. "Özbəkneftqaz" Səhmdar Cəmiyyətinin Biznesin Perspektiv İnkişafı Departamentinin aparıcı mütəxəssisi Əlyor Abdulacanov təəssüratını belə ifadə etdi: "Bu, sərgidə ilk iştirakımız deyil. Biz bu tədbirə SOCAR-ın tərəfdaşı kimi gəlirik. Burada eyni zamanda digər mövcud və potensial tərəfdaşlarımızla görüşürük. Artıq müəyyən işlər planlaşdırmışıq. İnkişaf mərhələsində olan layihələrimiz var. Sərgiyə gəldikdə isə onu deyə bilərik ki, tədbir həmişə olduğu kimi, yenə də yüksək səviyyədə təşkil edilib. Biz hələ də Prezident İlham Əliyevin sərgiyə gəlişinin xoş təsiri altındayıq. Digər sərgilərdə də olmuşuq, ancaq belə yüksək səviyyədə sərgi və təşkilatçılıq görməmişik".

Sərgiyə maraq göstərənlərin, ziyarətə gələnlərin sayı da çox idi. Azərbaycan Dövlət İqtisad Universitetinin məzunu Vasif Yolçuyev dedi ki, Ekspo Mərkəzindəki sərgilərə məmnuniyyətlə baxır. Bu maraq onda 5-6 il əvvəl yaranıb. Həmin vaxtdan burada keçirilən sərgilərin əksəriyyətinin ziyarətçisi olub. Onun fikrincə, bu sərgilərin insanın dünyagörüşünün genişlənməsində böyük rolu var. Əgər tədbir çalışdığın sahəyə aiddirsə, bunun faydası daha böyük olur.

Bakı Enerji Həftəsinin əsas mövzularından biri "Cənub qaz dəhlizi" idi. Bu da təsadüfi deyil. Çünki enerjinin transformasiyasında təbii qaz getdikcə daha çox əhəmiyyət kəsb edir. Bu fonda "Cənub qaz dəhlizi" layihəsinin Azərbaycan üçün strateji önəmi də artır. Məlumdur ki, bu enerji dəhlizi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır və gələcəkdə onun genişləndirilməsi imkanları böyükdür.

Digər vacib bir mövzu isə bərpaolunan enerji idi. Xatırladaq ki, Bakı Enerji Həftəsinin üç tədbirindən biri məhz həmin məsələni əhatə edirdi. Zaman dayanıqlı və təmiz enerji güclərinin artırılması, yeni enerji marşrutlarının müəyyən edilməsi kimi vəzifələri gündəmə gətirmişdir. Bunu nəzərə alaraq, Azərbaycan xüsusilə bərpaolunan enerji növlərinin inkişafı istiqamətində davamlı layihələr həyata keçirir. Biz "yaşıl enerji" siyasətinə münasibətdə uzunmüddətli hədəflər müəyyən etmişik. 2030-cu ilədək olan dövrdə "yaşıl artım" ölkəsinə çevrilməyi və təmiz ətraf mühitə nail olmağı sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdən biri kimi müəyyənləşdirmişik. Prezidentimiz işğaldan azad olunmuş əraziləri - 10 min kvadratkilometr ərazini "yaşıl enerji" zonası elan edib.

Bu sahədə aparıcı şirkətlər olan "ACWA Power" (Səudiyyə Ərəbistanı) və "Masdar"la (Birləşmiş Ərəb Əmirlikləri) ölkəmizdə biri günəş, digəri isə külək olmaqla, iki elektrik stansiyası inşa edilir ki, onların birgə istehsal gücü 470 meqavatdır. Təsadüfi deyil ki, sərgidə bu şirkətlər geniş pavilyonlarla təmsil olunurdu.

"Yaşıl enerji" bp-nin stendlərində də özünə yer almışdı. Çünki bu şirkət indi Azərbaycanda həmin sahədə də çalışacaq - işğaldan azad olunmuş Cəbrayıl rayonunda bərpaolunan enerji stansiyası tikəcək.

Sərgidə ziyarətçilərin də "yaşıl enerji"yə maraq göstərməsi diqqəti cəlb edirdi. Onlar bu mövzunu əks etdirən stendlər qarşısında ayaq saxlayır, ətraflı məlumat almaq istəyirdilər. Bakı Metropoliteninin elektrik mühəndisi Seymur Abdullayev dedi ki, ixtisası ilə bağlı bütün məsələlər onun marağındadır. Odur ki,energetika ilə əlaqədar nə varsa, hamısına diqqət kəsilir. Sərgi ona xüsusilə bərpaolunan enerjiyə aid olan bilgilərini artırmağa imkan verir.

Sözügedən məsələlər iyunun 2-3-də Bakı Konqres Mərkəzində keçirilən Bakı Enerji Forumunda da öz geniş əksini tapdı. Belə ki, forumda qlobal enerji perspektivləri, "yaşıl enerji"yə keçidin maliyyələşdirilməsi, qaz təchizatı məsələləri, Xəzər regionunda kəşfiyyat və hasilat imkanlarının xəritəsi və bir sıra digər aktual məsələlər müzakirə olundu.

Burada dünyanın 20 ölkəsindən 400-dən çox nümayəndə iştirak etdi. Proqrama 50 məruzəçinin 25-dən çox mövzusu daxil idi. Bir sözlə, Bakı Enerji Forumu enerji sektorunun əsas tədbiri statusu qazanmış Xəzər Neft və Qaz Konfransının ənənələrini davam etdirməklə yanaşı, gündəliyini yeni enerji seqmentləri ilə genişləndirdi.

Prezident İlham Əliyevin sərgi və forum iştirakçılarına ünvanladığı məktubda deyilir: "Dünya neft və enerji sənayesinin inkişafında xüsusi mövqeyi ilə seçilən Azərbaycan həmçinin müxtəlif ölkələrdə genişmiqyaslı investisiya layihələri həyata keçirməkdədir. Bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınan ölkəmizin mövqeyi daha da güclənir. Biz üzərimizə götürdüyümüz öhdəlikləri layiqincə yerinə yetirir və xarici sərmayədarlar üçün də əlverişli şərait yaradırıq".

Bakı Enerji Həftəsi bütün bunların daha bir əyani nümayişinə çevrildi.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Azərbaycan. - 2022.- 4 iyun.- S.5.